**Leyla Natiq qızı Hüseynova** [83]

# SÜNİ İNTELLEKTİN İNGİLİS DİLİNİN ÖYRƏNİLMƏSİ PROSESİNƏ TƏSİRİ: FƏRDİLƏŞDİRİLMİŞ ÖYRƏNMƏ VƏ AVTOMATİK QİYMƏTLƏNDİRMƏ

**Giriş.** Müasir texnologiyanın inkişafı təhsil sahəsində köklü dəyişikliklərə gətirib çıxarmışdır. Belə ki, süni intellekt insanın fəaliyyətinin müxtəlif sahələrində olduğu kimi, dilin öyrənilməsi prosesinə də təsir göstərmişdir. İngilis dili dünyanın qlobal ünsiyyət vasitəsinə çevrildiyi üçün onu öyrənmək təkcə fərdi inkişaf üçün deyil, həm də akademik və peşəkar sahədə uğur qazanmaq üçün vacib elementlərdən biridir. Ənənəvi dil öyrənmə metodları uzun illər effektiv hesab olunsa da, dəyişən tələbatlara uyğunlaşması baxımından o, müəyyən məhdudiyyətlərə malikdir. Süni intellekt uyğunlaşdırılmış öyrənmə sistemləri, avtomatik qiymətləndirmə vasitələri və fərdiləşdirilmiş tədris imkanları ilə bu məhdudiyyətləri aradan qaldırmağa kömək edir.

Son illərdə dilin tədrisi prosesində süni intellektin tətbiqi sürətlə artmış və bu texnologiyalar öyrənmə prosesini daha interaktiv və əlçatan etmişdir [Brown, 2021]. Məsələn, Duolingo, Babbel, Grammarly və digər platformalar istifadəçilərin fərdi ehtiyaclarına uyğunlaşdırılmış dərs planları və avtomatik geridönüşlər edərək dilin öyrənilməsi prosesini daha effektiv hala gətirir. Eyni zamanda, süni intellektin avtomatik qiymətləndirmə sistemləri vasitəsilə yazı və nitq bacarıqlarının obyektiv şəkildə dəyərləndirilməsi öyrənənlərin bilik və bacarıqlarını real vaxt rejimində izləməyə və fərdi tədris strategiyalarını buna uyğun tənzimləməyə imkan yaradır. Aparılan araşdırmanın məqsədi məhz süni intellektin ingilis dilinin öyrənilməsi prosesinə təsirini təhlil etmək, xüsusilə fərdiləşdirilmiş öyrənmə və avtomatik qiymətləndirmə sahəsindəki rolunu araşdırmaqdır. Bu məqsədlə aşağıdakı tədqiqat sualları formalaşdırılmışdır:

1. Süni intellekt İngilis dilinin fərdiləşdirilmiş öyrənilməsinə necə töhfə verir?
2. Süni intellekt əsaslı avtomatik qiymətləndirmə sistemləri dil bacarıqlarının inkişafına necə təsir göstərir?
3. Süni intellektin tədris prosesindəki üstünlükləri və məhdudiyyətləri nələrdir?

Tədqiqat süni intellektin təhsil sahəsində rolu ilə bağlı mövcud nəzəri və praktiki yanaşmaları özündə əks etdirməklə, ingilis dilinin tədrisində onun imkanlarını müəyyən etməyə kömək edəcəkdir.

**Dilin öyrənilməsi prosesində süni intellektin tətbiq sahələri.** Süni intellekt (Sİ) kompüter sistemlərinin insan zəkasına xas olan məntiqi düşünmə, öyrənmə, problem həll etmə və mühitin təhlili funksiyalarını yerinə yetirir [Chapelle, 2020]. Sİ, əsasən, verilənlər üzərində müşahidə apararaq nəticələr çıxarmaq üçün nəzərdə tutulmuş məntiqi qaydalar əsasında işləyir.

**Süni intellektin fərdi öyrənmə prosesinə uyğunlaşdırılması (adaptiv öyrənmə sistemləri).** Fərdiləşdirilmiş öyrənmə (İng. Personalized Learning) tələbələrin təhsil ehtiyaclarına, maraqlarına, bacarıqlarına və öyrənmə üsuluna uygun olaraq məzmunun, metodikanın və resursların tənzimlənməsi prosesidir. Bu yanaşma konstruktiv təlim nəzəriyyəsinə söykənərək öyrənmənin tələbənin aktiv fəaliyyəti nəticəsində baş verdiyini vurğulayır. Konstruktiv yanaşma Viqotski, Piaget və Brunerin araşdırmalarına əsaslanır. Bu yanaşmaya görə tələbə yeni bilikləri öz əvvəlki bilik bazası üzərində formalaşdırır. Fərdiləşdirilmiş öyrənmə də bu prinsipə əsaslanaraq tələbənin təhsilalma formasına, sürətinə və ehtiyaclarına uyğun tədris planı təklif edir. Fərdiləşdirilmiş öyrənmənin elementlərinə tələbənin maraqları və bacarıqlarına uyğun materialların sərgilənməsi, metodik vəsaitlərin tələbənin öyrənmə tərzinə uyğun tərtib olunması, formativ qiymətləndirmənin istifadə olunması və rəqəmsal platformalar, mobil tətbiqlər və adaptiv öyrənmə sistemlərinin istifadə olunması daxildir [Oxford, 2019, s. 233].

Süni intellekt fərdiləşdirilmiş öyrənmənin effektivliyini artırmaq üçün çox önəmli vasitədir. Çünki adaptiv öyrənmə sistemləri Sİ alqoritmləri vasitəsilə tələbənin fərdi təhsil ehtiyaclarına uyğun materiallar və təlim metodları təklif edir. Adaptiv öyrənmə sistemləri tələbənin öyrənmə tempini, nailiyyətlərini təhlil edərək, tədris mövzularını və mövzuya dair sualları tələbənin cavablarına uyğunlaşdırmaq imkanına malikdir [Yu və Xu, 2021]. Belə ki, bu sistemlər tələbəyə uyğun çətinlik dərəcəsi olan tapşırıqlar verir.

Süni intellektin fərdiləşdirilmiş öyrənmədən istifadə olunmasının üstünlükləri ondan ibarətdir ki, Sİ alqoritmləri tələbənin ehtiyaclarına çox daha tez adaptasiya olunaraq onun bilik səviyyəsinə uygun materiallar təklif edir. Bundan əlavə Sİ lazım olan materialı avtomatik təhlil edərək önəmsiz hissələri aradan qaldırır və öyrənmə prosesini daha interaktiv hala gətirir.

**Avtomatik qiymətləndirmənin əsasları və süni intellektin bu prosesdə rolu.** Avtomatik qiymətləndirmə təhsil sahəsində texnologiyanın inkişafı ilə daha geniş yayılmağa başlamış bir proses olub şagirdlərin, tələbələrin və ya digər iştifadəçilərin bilik və bacarıqlarını qiymətləndirmək üçün avtomatik sistemlərdən istifadəni nəzərdə tutur. Burada əsas məqsəd subyektivliyi minimuma endirərək obyektiv və dəqiq qiymətləndirmə aparmaqdır. Sözgedən avtomatik qiymətləndirmə sistemləri tərəfindən qiymətləndirilə bilən sahələrdən biri də yazı və nitq bacarıqlarıdır. Bu prosesdə süni intellektin rolu olduqca böyükdür. Sİ vasitəsilə söz bazaları, semantik analiz metodları, sintaktik quruluşlar və digər linqvistik faktorlar dərindən təhlil edilir və qiymətləndirmə prosesi daha obyektiv aparılır [Lu və Lee, 2021, s. 152].

Avtomatik qiymətləndirmənin əsas prinsiplərindən birinci obyektivlikdir. Belə ki, süni intellekt sistemləri insanlardan fərqli olaraq subyektiv faktorlardan təsirlənmədən qiymətləndirmə apara bilir [Ellis, 2022]. Bu da qiymətləndirmənin çox daha dəqiq və ədalətli olmasına imkan yaradır. İkinci prinsip isə dəqiqlik və sürətlilikdir. Sİ

[83] Aduventure MMC, müəllim. leylarauf83@gmail.com. Jrchd kodu:0009-0007-7872-5393

alqoritmləri çox sayda məqaləni, yazını və ya nitqi qısa zamanda təhlil edərək, eyni vaxtda bir neçə nəfər üçün qiymətləndirmənin aparılmasını təmin edir.

Süni intellekt sistemləri daim təkmilləşir və daha effektiv qiymətləndirmə metodları təklif edir. Sİ sistemləri yazı bacarıqlarını qiymətləndirərkən bir neçə mühüm faktoru nəzərə alır. Birincisi, qrammatik dəqiqlikdir. Sİ proqramları mətn daxilində olan sintaktik və qrammatik səhvləri avtomatik olaraq aşkarlayır və onların düzəldilməsini təklif edir. İkincisi, semantik uyğundur. Məqalənin, yazının tamlığını, mövzuya uyğunluğu və dolğunluğu təhlil edilir. Üçüncüsü, yazının strukturudur. Sİ sistemi paraqraf quruluşunu, məntiqi ardıcıllığı qiymətləndirmək imkanına malikdir [García və Peña, 2019, s. 504].

Nitq bacarıqlarının avtomatik qiymətləndirilməsi də oxşar prinsiplər əsasında aparılır. Belə ki, Sİ sistemləri tələffüz, intonasiya, bəlağətli nitq və vurğular üzərində dayanaraq istifadəçinin nitq keyfiyyətini qiymətləndirir. Məsələn, dil öyrənənlər üçün nəzərdə tutulan proqramlar, o cümlədən Duolingo və ya iTalki kimi platformalar Sİ-dən istifadə edərək nitq bacarıqlarının avtomatik olaraq dəyərləndirilməsini təmin edir.

Süni intellektin nitq və yazı bacarıqlarının qiymətləndirilməsində istifadə edilməsinin bir neçə üstünlüyü var. Birincisi, Sİ istifadəçilərə davamlı rəy bildirmək imkanı verir. İnsanlar səhvləri düzəltməkdən yorulduğu halda, Sİ sistemləri istənilən vaxtda istifadəçiyə xidmət göstərir. İkincisi, Sİ çoxlu miqdarda məlumatı emal edərək fərdi olaraq hər bir istifadəçi üçün uyğunlaşdıra bilir.

Bununla yanaşı, avtomatik qiymətləndirmənin bir sıra çatışmazlıqları mövcuddur. Məsələn, Sİ bəzi mətnlərdə və ya nitqlərdə ironiyanı və ya metaforaları düzgün başa düşməyə bilər. Bundan başqa, bəzən Sİ alqoritmləri istifadəçilərin fərdi yaradıcılığını və xüsusi yazı tərzinə uyğun olaraq qiymətləndirmə apara bilmir. Buradan belə qənaətə gəlmək olar ki, Sİ yazı və nitq bacarıqlarını qiymətləndirməkdə obyektiv və səmərəli vasitə olaraq tələbələrə və müəllimlərə dəstək olsa da, onun imkanlarının hələ də inkişaf etdirilməyə ehtiyacı var və insan faktorunun təhsil prosesində əhəmiyyəti unudulmamalıdır.

**Süni intellekt əsaslı dil öyrənmənin üstünlikləri, çatışmazlıqları və potensial problemlər.** Süni intellekt əsaslı dil öyrənmə metodları son illərdə sürətlə inkişaf edərək, ənənəvi dil öyrənmə üsullarına alternativ kimi geniş istifadə olunmağa başlamışdır. Sİ texnologiyaları, xüsusilə dərin öyrənmə, təbii dil işləmə (NLP) və maşın öyrənmə modelləri sayəsində fərdi və effektiv dil öyrənmə imkanlarına malikdir [Johnson, 2018, s. 313]. Lakin bu metodların bir sıra üstünlükləri olsa da, müəyyən problemlər və məhdudiyyətlər də mövcuddur [Warschauer, 2020, s. 7]. Bunlara süni intellektin etibarlılığı, etik məsələlər və texnologiyanın hələ tam mükəmməl olmaması daxildir [Heift və Schulze, 2015].

Süni intellekt texnologiyası geniş miqyaslı dil materialları təqdim etməyə imkan yaradır. İnternetdə mövcud olan müxtəlif Sİ proqramları istifadəçilərə minlərlə müxtəlif məqalə, audio və video materiallar təqdim edir. Bu, istifadəçilərə dilin öyrənilməsi prosesində təcrübə qazanmaq və dili öyrənmək imkanı verir. Bundan başqa, Sİ əsaslı tərcümə alətləri və çatbotlar da tələbələrə ünsiyyət bacarıqlarını təkmilləşdirmək imkanları yaradır.

Sİ əsaslı dil öyrənmənin başqa bir üstünlüyü onun əlçatanlığı və rahatlığıdır. İnsanlar ənənəvi dil kurslarına getmək üçün vaxt və məkan məhdudiyyətləri ilə üzləşə bilərlər. Sİ əsaslı tətbiqlər isə hər zaman və hər yerdə istifadəyə açıqdır. İstifadəçilər mobil telefonları və ya kompüter vasitəsilə istədikləri zaman tədris materiallarından yararlana bilərlər [Levy, 2018]. Bu, xüsusilə məşğul həyat tərzi keçirən və ya coğrafi baxımdan məhdudiyyətləri olan insanlar üçün çox faydalıdır. Bununla yanaşı, Sİ əsaslı dil öyrənmənin müəyyən problemləri və məhdudiyyətləri də mövcuddur. Bu problemlərdən biri Sİ-nin etibarlılığıdır. Sİ sistemləri bəzən səhv nəticələr verə bilər. Məsələn, avtomatik tərcümə alətləri məzmuna uyğun olmayan tərcümələr təqdim edə bilər. Eləcə də çatbotlar qeyri-dəqiq cavablar verə bilərlər. Belə hallarda istifadəçilər səhvləri düzəltmək üçün əlavə resurslara ehtiyac duyur. Digər bir problem Sİ əsaslı dil öyrənmə sistemlərinin emosional və sosial məzmunu tam anlamaması ilə bağlıdır. İnsanlar dili yalnız qrammatika və söz bazası vasitəsilə deyil, həm də emosional məzmunda öyrənirlər. Sİ əsaslı sistemlər isə bu cəhətləri tam mənimsəyə bilmir və bu da onların ünsiyyət bacarıqlarını inkişaf etdirmək üçün tam yetərli olmamasına səbəb ola bilər. Misal üçün, Sİ çatbotları rəsmi və ya qeyri-rəsmi danışıq arasındakı fərqləri düzgün analiz etməyə və ya zarafat və ironiyanı başa düşməyə bilər.

Etik məsələlər də Sİ əsaslı dil öyrənmə sistemləri ilə bağlı narahatlıq doğuran mövzulardan biridir. Bu zaman şəxsi məlumatların təhlükəsizliyi və məxfiliyi problem halına gəlir. Sİ əsaslı dil öyrənmə tətbiqləri istifadəçilərin səs nümunələrini, yazılı mətnlərini və digər şəxsi məlumatlarını toplaya bilər. Əgər bu məlumatlar düzgün qorunmasa, şəxsi həyatın toxunulmazlığına təhlükə yarana bilər. Bundan əlavə, Sİ əsaslı təhsil texnologiyalarının istifadəsi sosial-iqtisadi bərabərsizliyi daha da dərinləşdirə bilər. Sİ əsaslı sistemlərdən istifadə etmək üçün yüksək sürətli internet və texnoloji avadanlıq tələb olunur. Bu resurslara çıxışı olmayan insanlar üçün Sİ əsaslı dil öyrənmə imkanları məhdudlaşır və bu, xüsusilə inkişaf etməkdə olan ölkələrdə bərabərsizliyi daha da artırır.

Sİ əsaslı dil öyrənmə sistemlərinin daha bir məhdudiyyəti onların insanlarla, yəni pedaqoqlarla rəqabət apara bilməməsidir. Pedaqoqlar tələbələrin duyğularını anlaya bilir, onlara motivasiya verə bilir və öyrənmə prosesinə fərdi yanaşma tətbiq edə bilir. Sİ isə hələlik bu cəhətdən onlarla yarışa bilmir. Düzdü Sİ əsaslı tətbiqlər şagirdlərin motivasiyasını artırmaq üçün müxtəlif mexanizmlərdən istifadə etsə də, onlar insanın yaratdığı emosional əlaqəni tam əvəz edə bilmir.

Bütün bu problemlərə baxmayaraq, Sİ əsaslı dil öyrənmə sistemləri getdikcə təkmilləşməkdə və daha da inkişaf etməkdədir. Sİ-nin etibarlılığını artırmaq üçün daha dəqiq və məzmun təhlili aparan modellər hazırlanır. Məsələn, GPT-4 kimi yeni nəsil süni intellekt modelləri məzmunu daha yaxşı anlaya bilir və daha təbii ünsiyyət

yarada bilir. Bundan əlavə, etik məsələlərin həlli üçün daha ciddi məxfilik qaydaları tətbiq edilir və istifadəçilərin məlumatlarının qorunması üçün yeni texnologiyalar hazırlanır.

Gələcəkdə Sİ əsaslı dil öyrənmə sistemlərinin daha da inkişaf edərək insanlara daha yaxın səviyyəyə çatacağı gözlənilir. Avtomatik tərcümə sistemlərinin daha məzmunlu olması, çatbotların daha təbii və emosional ünsiyyət qurmağı öyrənməsi və fərdiləşdirilmiş öyrənmə sistemlərinin daha da inkişaf etməsi bu sahədə böyük irəliləyişlərə gətirib çıxara bilər.

**Süni intellekt və tədrisin perspektiv istiqamətləri.** Süni intellektin dilin tədrisində istifadəsi və təhsildə inqilabi dəyişikliklər yaratma potensialı son illərdə getdikcə artmaqdadır. Bu texnologiya, müəllimlərin öyrətmə prosesini təkmilləşdirməklə yanaşı, tələbələrin fərdi ehtiyaclarına uyğun fərdi yanaşma təklif edir. Süni intellektin dil öyrənmə prosesində istifadəsi bir çox sahədə inqilabi addımlar atmağa imkan yaratmışdır. Dillərin öyrənilməsi üçün məşhur Süni intellekt əsaslı proqramlardan biri Duolingo-dur. Bu platforma süni intellektin adaptiv öyrənmə alqoritmlərindən istifadə edərək tələbələrin biliyini qiymətləndirir və onların tələbata uyğun öyrənmə trayektoriyasını məyyən edir. Süni intellekt sayəsində söz bazasını formalaşdırmaq, tələffüzü təkmilləşdirmək və cümlə qurma bacarıqlarını artırmaq mümkün olur. [McCarthy, s. 2018]

Təhsilin digər sahələrində də süni intellektin istifadəsi artmaqdadır. Məsələn, ABŞ-da MİT universiteti Sİ dəstəkli sinif otaqları yaratmışdır ki, burada süni intellekt tələbələrin öyrənmə tempini izləyir və onların ehtiyaclarına uyğun tapşırıqlar hazırlayır. Bu yanaşma fərdi öyrənməni təşviq edir və tələbələrin bacarıqlarına daha uyğun materialları təqdim edir.

Sİ texnologiyaları öyrətmə prosesinə yeni yanaşmalar təklif edir. Məsələn, Google-un Sİ dəstəkli söhbət botları söhbət vasitəsilə dil öyrənmə prosesini daha effektiv hala gətirir. Tələbələr bu botlarla fərdi qaydada çalışaraq tələffüzlərini yoxlaya bilər və cümlə qurma bacarıqlarını inkişaf etdirə bilər.

Təhsil sahəsində Sİ istifadəsinin bir başqa real tətbiqi İBM Watson Education platformasıdır. Bu sistem məzmunun avtomatik təhlilini apararaq, məllimlərə fərdi yanaşmalar təklif edir. İBM Watson, tələbələrin öyrənmə və anlama prosesini izləyərək, onlara uyğun öyrənmə metodları təklif edir.

Süni intellektin dil öyrənmə prosesində istifadəsi tələbələrin də motivasiyasını artırır. Bu texnologiya sayəsində çoxsaylı dillərə malik insanlar yeni dilləri daha qısa zamanda öyrənə bilər. Məsələn, Cənubi Koreyada Sİ dəstəkli dil laboratoriyaları istifadə edilir ki, burada Sİ proqramları tələbələrin inkişaf tempini izləyir və onlara şəxsi təlim planları təklif edir. Buradan belə qənaətə gəlmək olar ki, gələcəkdə süni intellekt təhsilin ayrılmaz hissəsinə çevriləcək və hər bir tələbə öz ehtiyaclarına uyğun individual tədris planına sahib olacaq və Sİ təhsilin yeni dövrünü başladaraq insanlara daha çevik və effektiv öyrənmə imkanları yaradacaq. [Selwyn, 2019]

**Nəticə və tövsiyələr.** Süni intellektin ingilis dilinin öyrənilməsi prosesinə inteqrasiyası təhsildə inqilabi dəyişikliklərə səbəb olmuşdur. Sİ əsaslı sistemlər fərdi tədris planları, avtomatik qiymətləndirmə və interaktiv öyrənmə metodları vasitəsilə tələbələrin daha səmərəli və effektiv şəkildə dil öyrənməsinə kömək edir. Süni intellekt müəllimlər üçün də dəyərli bir resurs rolunu oynayaraq, onların qiymətləndirmə prosesində yükünü azaltmağa imkan yaradır. Bununla belə, süni intellekt müəllimlərin yerini tam əvəz edə bilməz. Dil tədrisində emosional ünsiyyət, sosial məzmun və mədəni faktorlar mühüm rol oynayır. Süni intellekt əsaslı sistemlərin daha etibarlı və effektiv olması üçün insan faktorunu tamamlayıcı rol oynayan texnologiyalar kimi inkişaf etdirilməsi vacibdir.

Süni intellektin dilin öyrənilməsi prosesindəki rolunu daha da inkişaf etdirmək üçün gələcək tədqiqatlar aşağıdakı istiqamətlərə yönəldilməlidir:

1. Sİ-nin tələbələrin emosional vəziyyətini anlayaraq öyrənmə prosesini daha uyğunlaşdırması üçün tədqiqatlar aparılmalıdır.
2. Süni intellekt əsaslı sistemlərin fərqli mədəni və sosial məzmunda ünsiyyəti düzgün başa düşməsi üçün yeni alqoritmlərin inkişafı vacibdir.
3. İstifadəçilərin şəxsi məlumatlarının qorunması və Sİ-in etik istifadəsinə dair qaydaların təkmilləşdirilməsi üzərində araşdırmalar aparılmalıdır.
4. Sİ sistemlərinin müəllimlərlə daha effektiv əməkdaşlıq etməsi üçün yeni metod və yanaşmalar hazırlanmalıdır.
5. Süni intellektin daha məzmunlu və dərin məna təhlili apara bilməsi üçün təbii dil emalı sahəsində daha inkişaf etmiş modellər hazırlanmalıdır.

Bu istiqamətlər üzrə aparılacaq tədqiqatlar süni intellektin dilin öyrənilməsi prosesindəki imkanlarını genişləndirərək, onu daha effektiv və insan yönümlü bir texnologiyaya çevirə bilər.

**İstifadə edilmiş ədəbiyyat**


1. Brown, J.D. (2021). *Artificial Intelligence in Language Learning: Opportunities and Challenges.* Cambridge University Press.
2. Chapelle, C.A. (2020). *Automated Language Learning and Assessment: Applications and Ethics.* Routledge.
3. Duolingo Research Team (2022). *How AI Enhances Language Learning: Adaptive Learning and Feedback Systems.* Duolingo Blog.
4. Ellis, R. (2022). *AI and Second Language Acquisition: Bridging the Gap Between Human and Machine Learning.* Cambridge University Press.
5. García, P., & Peña, M. (2019). *Artificial Intelligence and English Language Acquisition: A Review of Current Technologies.* Journal of Applied Linguistics, 36(4), 503-517.
6. Heift, T., & Schulze, M. (2015). *Errors and Intelligence in Computer-Assisted Language Learning: Parsers and Pedagogues.* Routledge.
7. Johnson, K. (2018). *Natural Language Processing for Education: An Overview of AI Applications.* Journal of Educational Technology, 45(3), 312-330.
8. Levy, M. (2018). *Computer-Assisted Language Learning: Context and Conceptualization.* Oxford University Press.
9. Lu, X., & Lee, S. (2021). *AI-Powered Writing Evaluation Systems: Advantages and Limitations.* Language Assessment Quarterly, 18(2), 145-163.
10. McCarthy, J. (2018). *AI in Education: Past, Present, and Future Prospects.* MIT Press.
11. Oxford, R. (2019). *Personalized Language Learning with AI Technologies.* TESOL Quarterly, 53(2), 225-239.

12. Reinders, H., & White, C. (2020). *The Role of AI in Distance Language Learning: A New Frontier?* Journal of Online Learning Research, 6(2), 120-138.
13. Selwyn, N. (2019). *Education and AI: A Critical Analysis of Digital Learning Systems.* Educational Review, 71(5), 567-584.
14. Warschauer, M. (2020). *Technology and Language Learning: The Role of AI and Machine Learning.* Language Learning & Technology, 24(1), 1-16.
15. Yu, Z., & Xu, L. (2021). *Adaptive Learning Through AI: A Case Study on English Pronunciation Training.* Computers & Education, 160, 104034.

**Açar sözlər:** süni intellekt, ingilis dili, dilin öyrənilməsi, fərdiləşdirilmiş öyrənmə sistemləri, avtomatik qiymətləndirmə, süni intellekt alqoritmləri, yazı və nitq bacarıqları
**Keywords:** artificial intelligence, English language, language learning, personalized learning systems, automatic assessment, artificial intelligence algorithms, writing and speaking skills.
**Ключевые слова:** искусственный интеллект, английский язык, изучение языка, персонализированные системы обучения, автоматическая оценка, алгоритмы искусственного интеллекта, навыки письма и говорения.

## The impact of artificial intelligence on the english language learning process: personalized learning and automatic assessment

### Summary

The development of modern technology has led to radical changes in the field of education. In particular, artificial intelligence (AI) has had a significant impact on the language learning process. Since English plays an important role as a global communication tool, methods for learning this language are constantly being improved. Although traditional teaching methods are useful, they have certain limitations in terms of individual approach and adaptation to the needs of learners. Artificial intelligence technologies offer personalized learning and automatic assessment opportunities to overcome these problems. This article examines the role of artificial intelligence in English language teaching. In particular, are studied personalized learning platforms and automatic assessment systems. The article also examines the advantages and limitations of using artificial intelligence in teaching. As a result, this article has extensively analyzed the impact of artificial intelligence on English language teaching and put forward suggestions for its effective use. With the continuous development of artificial intelligence, it is expected that this technology will be more widely applied in the field of education and will work in synergy with human teachers.

## Влияние искусственного интеллекта на процесс изучения английского языка: персонализированное обучение и автоматическая оценка

### Резюме

Развитие современных технологий привело к радикальным изменениям в сфере образования. В частности, искусственный интеллект (ИИ) оказал значительное влияние на процесс изучения языка. Поскольку английский язык играет важную роль в мировом общении, методы изучения этого языка постоянно совершенствуются. Хотя традиционные методы обучения полезны, они имеют определенные ограничения с точки зрения индивидуального подхода и адаптации к потребностям учащихся. Технологии искусственного интеллекта предлагают возможности персонализированного обучения и автоматической оценки для преодоления этих проблем. В данной статье рассматривается роль искусственного интеллекта в преподавании английского языка. В частности, изучаются персонализированные платформы обучения и системы автоматической оценки. В статье также рассматриваются преимущества и ограничения использования искусственного интеллекта в обучении. В результате в данной статье подробно проанализировано влияние искусственного интеллекта на преподавание английского языка и выдвинуты предложения по его эффективному использованию. Ожидается, что с непрерывным развитием искусственного интеллекта эта технология получит более широкое применение в сфере образования и будет работать во взаимодействии с учителями-людьми.

**RƏYÇİ: dos. E.Vəliyeva**